# Qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan Azərbaycan-ABŞ münasibətləri



**Müstəqil və suveren Azərbaycan bu gün beynəlxalq arenada uğurla təmsil olunur, etibarlı strateji tərəfdaş kimi tanınır. Dövlətimiz sahib olduğu resurslardan səmərəli istifadə edərək həm beynəlxalq təşkilatlarda, həm də ayrı-ayrı əməkdaşlıq platformaları çərçivəsində öz mövqeyini gücləndirir.**

Azərbaycan hazırda mühüm geosiyasi məkan kimi regionda sülhün və təhlükəsizliyin təminatçısıdır. Prezident İlham Əliyevin konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürütməsi nəticəsində Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq münasibətlər sisteminin aparıcı dövlətləri üçün strateji əhəmiyyət daşıyır.

**(davamı 10-cu səhifədə)**



# Qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan Azərbaycan-ABŞ münasibətləri

(əvvəli 1-ci səhifədə)

Ötən əsrin sonlarında keçmiş Sovet İttifaqının dağılmasından sonra müstəqilliyini bərpa edən Azərbaycan ümummilli lider Heydər Əliyevin uğurlu xarici siyasəti nəticəsində beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrildi, bir çox dünya ölkələri ilə əməkdaşlıq münasibətləri quruldu. Bu ölkələrdən biri də Amerika Birləşmiş Ştatlarıdır. Bu gün Azərbaycanla ABŞ arasında diplomatik münasibətlərin qurulmasından 33 il keçir. Dünyanın iqtisadi güc mərkəzi olan ABŞ keçmiş SSRİ-nin dağılmasından sonra formalaşan birqütblü dünya sistemində, Qafqaz regionunda da fəal xarici siyasət strategiyası həyata keçirdi. Uzun illərdən sonra müstəqillik əldə edən Qafqaz ölkələri regionda yaranan ağır iqtisadi və siyasi vəziyyətin normallaşması, mövcud problemlərin aradan qaldırılması baxımından ABŞ-la çoxtərəfli əməkdaşlığın qurulması və inkişafında maraqlı idi. Ölkəmiz Birləşmiş Ştatlarla bir çox sahələrdə olduğu kimi, iqtisadi sferada da əməkdaşlığın formalaşdırılması məsələsinə xüsusi önəm verirdi. Qeyd edək ki, 1991-ci ildə ABŞ-ın Cənubi Qafqaz siyasəti bir sıra parametrlərə görə birmənalı olmamışdı. Belə ki, müstəqilliyin ilk illərində Azərbaycanın əleyhinə olan "Azadlığa dəstək Aktına 907-ci düzəliş" adlı sənəd iki ölkə arasında münasibətlərin inkişafında əngələ çevrilmişdi. İki dövlət arasında əlaqələr və siyasi münasibətlər ulu öndər Heydər Əliyevin apardığı uğurlu xarici siyasət kursu nəticəsində yaxşılaşmışdı. Eləcə də milli maraqlara xidmət edən neft strategiyası ABŞ-Azərbaycan əlaqələrinin inkişafında mühüm rol oynamışdı.

İki ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə qurulmuş, 1992-ci il martın 16-da isə ABŞ-ın Bakıdakı səfirliyi fəaliyyət göstərməyə başlamışdı.

1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə əsası qoyulan enerji sahəsindəki əməkdaşlıq sonrakı mərhələdə münasibətlərin daha da yaxınlaşmasına şərait yaratdı. Bu, həm də ABŞ ilə Azərbaycan arasında çoxtərəfli iqtisadi əməkdaşlıqda əsaslı amilə çevrildi. Sənədin imzalanmasından sonra aparılan danışıqlar, imzalanan bir sıra mühüm müqavilələr, həyata keçirilən tədbirlər və icra edilən layihələr ABŞ-Azərbaycan iqtisadi münasibətlərinin gələcək inkişafına müsbət zəmin yaratdı. Azərbaycanın yürütdüyü uğurlu xarici siyasət strategiyası nəticəsində ABŞ-ın mühüm şirkətlərinin ölkədəki beynəlxalq neft-qaz layihələrinə cəlb edilməsi bu sferanı daha da inkişaf etdirdi. Azərbaycan neftinin dünya bazarlarına çatdırılmasını təmin etmək üçün ABŞ-ın iştirakı ilə reallaşdırılan mühüm layihələr ölkəmizin iqtisadi potensialını gücləndirməklə yanaşı, respublikanın təhlükəsizliyinin təminin olunmasında əsaslı roy oynadı.



Ulu öndər Heydər Əliyevin 1997-ci ilin 27 iyul - 6 avqust tarixlərində ABŞ-a rəsmi səfəri iqtisadi əlaqələrin inkişafına yeni təkan verdi. Səfər zamanı 5 mühüm sənəd - Amerika-Azərbaycan münasibətləri haqqında Birgə Bəyanat, Azərbaycan Respublikası hökuməti və Amerika Birləşmiş Ştatları arasında sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında müqavilə, ABŞ-la Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər barədə Birgə Bəyanat, Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması niyyətləri haqqında bəyanat, layihələrin təşviqinə dair Baş Saziş imzalandı.

İkinci Qarabağ müharibəsində əldə olunan parlaq qələbə bu gün reigonda yeni siyasi-iqtisadi reallıqlar formalaşdırıb. Azərbaycan öz torpaqlarını işğaldan azad etməklə bölgədə yeni düzən yaradaraq Cənubi Qafqazın iqtisadi inkişafına yol açıb. Bu amil həm də mühüm hissəsi enerji əməkdaşlığından ibarət ABŞ-Azərbaycan münasibətlərinə yeni təkan verir.

ABŞ-la region dövlətləri arasında münasibətləri inkişaf etdirmək, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına diqqət ayırmaq mühüm məqamlardan biridir. ABŞ Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsini, Cənub Qaz Dəhlizi layihəsinin tamamlanması üçün Azərbaycan və onun beynəlxalq tərəfdaşlarının səylərini dəstəklədiyini dəfələrlə bildirmişdir. Azərbaycanın hazırda Avropa İttifaqının enerji təhlükəsizliyində mühüm rola malik olduğunu nəzərə alsaq, ənənəvi enerji sahələri ilə yanaşı, bərpaolunan enerji sahələrinə də xarici investisiyaların cəlbi ölkəmizin marağındadır. Bu enerji sahəsində yüksək peşəkarlığa malik ABŞ şirkətləri üçün olduqca vacib faktordur. Eyni zamanda təhlükəsizlik kontekstində ABŞ-la Azərbaycanın strateji tərəfdaşlığını uğurlu edən faktorlardan biri də rəsmi Bakının beynəlxalq terrorizmlə mübarizədə, həmçinin qlobal sülhyaratma prosesində Vaşinqtona yüksək səviyyəli dəstək verməsidir. ABŞ və Azərbaycan terrorizmə qarşı birgə mübarizə apararaq qlobal təhlükəsizliyi möhkəmləndirmək üçün çalışırlar.

Ötən ilin oktyabrında Donald Tramp yenidən prezident seçildikdən sonra ABŞ-Azərbaycan münasibətlərində yeni dövr başladı. Ağ Evin yeni sahibi yanvarın 20-də keçirilən andiçmə mərasimində qeyd etdi ki, ABŞ əvvəlki dövrlərdə olduğu kimi, öz xarici siyasətini digər ölkələrin daxili işlərinə müdaxilə, onları idarə etməyə çalışmaq prinsipi üzərində qurmayacaq. Donald Tramp bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirməyi qarşısına məqsəd qoyub. Bu siyasət sabiq prezident Cozef Baydenin dövründə ABŞ-Azərbaycan əlaqələrində müşahidə olunan neqativ hal və gərginliyi aradan qaldıracaq, iki ölkə arasında faydalı və bərabərhüquqlu əməkdaşlığı, strateji tərəfdaşlıq əlaqələrini daha da inkişaf etdirəcək. Hazırkı mərhələdə hər iki ölkəni bir-birinə bağlayan strateji əsaslar milli maraqlar sisteminin qarşılıqlı faydalı əlaqələr üzərində uzlaşdırılmasıdır. Azərbaycan-ABŞ münasibətləri yeni mərhələyə qədəm qoymaqla yanaşı, perspektiv üçün optimist proqnozlar ifadə etməyə imkan verir.

**Bayram SALMANOV,**
**"Respublika".**